# işçi səhm plan

Qeydiyyat ili 2019



# səhmə malik olma bizim gələcəkdə.

İşçilər üçün Səhm Planı sizə Wood səhmlərini almaq və şirkətdən bunun müqabilində ödəniş əldə etmək imkanı verir. Satın aldığınız hər 2 səhm üçün Wood şirkəti sizə 1 pulsuz səhm verəcək. Bu sənəd planın necə işlədiyini və ona qoşulma yollarını təsvir edir.

## Qeydiyyat

7 yanvar 2019-ci ildən

11 fevral 2019-ci ilə qədər

**Click here**

## Tutulmalar

2019-ci ilin mart ayından

**Click here**

## Alma

2019-ci ilin aprel ayından

2020-cu il mart ayına qədər

**Click here**

## Uyğun

Aprel 2021

**Click here**

# 1. Qeydiyyat

## Hüquq

1 noyabr 2018-ci il tarixdə siz Wood şirkətinin tam və ya yarım ştat işçisi olmusunuzsa, plana qoşulmaq dəvəti alacaqsınız. Plan hazırda Avstraliya, Azərbaycan, Braziliya, Kanada, Çili, Fransa, Hindistan, İrlandiya, İtaliya, Malayziya, Norveç, Sinqapur, İspaniya, Tayland, BB və ABŞ-da təklif edilir*. Plana qoşulmaq hüququ qazanmaq üçün planın tətbiq edildiyi ərazidə yaşamalı və işləməlisiniz; sizə ödənən əmək haqqı da planın tətbiq edildiyi yerdə olmalıdır. Göstərilmiş son tarixdən sonra işə götürülmüş şəxslər üçün dəvət 2020-cu ilin yanvar ayında olacaq növbəti qeydiyyat dövründən əvvəl göndəriləcək.

** təəssüf ki, Kaliforniya və Oreqon ştatlarında yaşayan işçilər bu ştatların qanunvericiliyi ilə bağlı olaraq, hazırda planda iştirak edə bilməyəcəklər.*

## Qeydiyyatdan necə keçməli

Yuxarıda verilən meyarlara cavab verirsinizsə, plana qoşulmaq üçün dəvət alacaqsınız; bu dəvətə planın internet saytına link və qeydiyyatdan keçmə təlimatları daxil olacaq. Dəvət poçt və ya e-poçtla göndəriləcək.

## Qeydiyyat müddəti

5 həftəlik qeydiyyat müddəti hər il yanvar ayında başlayacaq və fevral ayında başa çatacaq. Qeydiyyat ancaq ildə bir dəfə baş verəcək və məcburi deyil - qeydiyyatdan keçmə öz seçiminizlə olacaq. Bir plan ilində iştirak növbəti ildə sizin avtomatik qeydiyyatınızla nəticələnməyəcək. Planda iştirakı davam etdirmək istəyirsinizsə, hər il plana yenidən qoşulmaq lazımdır.

# 2. Tutulmalar

## Ödənişlər

Plana qoşulmaq qərarı versəniz, ümumi əmək haqqının neçə faizini sərmayə yatırmaq istədiyinizi müəyyən etməlisiniz - bu məbləğ 1% - 10% arasında ola bilər. Ödənişlər 12 ay ərzində xalis (vergilər çıxıldıqdan sonra) əmək haqqından ediləcək və hər əmək haqqından tutulacaq; bu, alma müddəti hesab olunur. Qeyd etmək vacibdir ki, ödənişlər ancaq əsas ümumi əmək haqqından tutulur; mükafatlar və ya digər müavinətlər nəzərə alınmayacaq.

## Misal

Con 5% ödəniş etmək qərarı verərsə və onun ümumi əmək haqqı $50,000olarsa, onda o, hər il vergilər tutulduqdan sonra xalis əmək haqqından $2,500 ödəyəcək. Beləliklə, Conun əmək haqqı hər həftə ödənilirsə, o, həftədə $48.08 ödəniş edəcək və bu, bir il ərzində $2,500 təşkil edəcək.

## Ödənişlərin dayandırılması

Planı tərk etsəniz, həmin il ərzində yenidən plana qoşula bilməyəcəksiniz. Planın hazırda mövcud olmadığı əmək haqqı/yaşayış yerinə köçsəniz, qanuni səbəblərdən planı tərk etməli olacaqsınız. İstənilən növ ödənişli məzuniyyətə çıxdıqda planı tərk etmək tələb olunmur, və normal qaydada ödənişləri davam edə bilərsiniz (hər hansı yerli tələbləri nəzərə almaq şərtilə).

# 3. Alma

## Alış müddəti

Plana qoşulsanız, Wood sizin adınızdan səhm almaq üçün bizim plan administratoru olan Computershare şirkətinə hər ay ödədiyiniz məbləği köçürəcək. Hansı tezliklə ödəniş etməyinizdən asılı olmayaraq, bütün alışlar 2019-ci ilin aprel ayından başlayaraq hər ay həyata keçiriləcək. Alışlar London Birjasında aparılacaq. Alışın tam cədvəlini onlayn rejimdə almaq mümkün olacaq.

## Alış-verişin təfərrüatları

Wood şirkəti BB-da qeydiyyatdan keçdiyi üçün alış-veriş Böyük Britaniyada aparılacaq. Bu o deməkdir ki, bütün ödənişlər funt sterlinqə (GBP) konvertasiya ediləcək. Mübadilə kursu bütün ödənişlərin konvertasiya edildiyi günə mövcud olan mübadilə kursunun orta qiymətinə bərabər olacaq. Səhmlər müəyyən tarixlərdə alınacaq və bu tarixlər qeydiyyat müddətinin başlanğıcında iştirakçılara bildiriləcək. 2019/2020-cu il üçün bu tarixlərin təfərrüatlını internet saytından ala bilərsiniz. Orta alış-veriş qiyməti təyin edilmiş alış günündə istifadə olunacaq. Səhmin qiyməti bir alış tarixindən digərinə fərqlənə bilər. Siz Böyük Britaniyadan kənarda yaşayırsınızsa və/yaxud əmək haqqını funt sterlinqdən fərqli valyuta ilə alırsınızsa, səhmlərin dəyəri həmin valyuta kursunun funt sterlinqə münasibətdə dəyişməsindən asılı olaraq dəyişəcək. Ona görə də, hər alış tarixinə etdiyiniz ödəniş müqabilində əldə etdiyiniz səhmlərin sayı müxtəlif ola bilər. Bütöv səhmlərin alışından sonra qalmış hər hansı məbləğ səhmin bir hissəsini almaq üçün istifadə ediləcək; belə səhmlər "yarımçıq səhmlər" adlanacaq.

## Məxfi məlumatdan istifadə etməklə alış-veriş

Qeydiyyat müddəti ərzində hər hansı qiymətlə bağlı həssas məlumat əldə etsəniz, Plana qoşulmağa icazəniz olmayacaq. Bununla belə, hər hansı qiymətlə bağlı həssas məlumatdan xəbəriniz olmasa normal qaydada Plana qoşulmaq hüququnuz olacaq. Plana qoşula bilsəniz, əvvəlcədən müəyyən edilmiş tarixlərdə Plan vasitəsilə səhmləri ala bilərsiniz, lakin adətən bağlı müddətə düşən müəyyən tarixlərdə səhmləri satma qabiliyyətiniz məhdudlaşa bilər. Bundan əlavə, siz hər hansı bağlı müddət ərzində planı tərk edə bilməyəcəksiniz. Hər hansı daxili və ya xarici davranış normalarını, məxfi məlumatdan istifadə edərək alış-veriş aparmaqla bağlı və səhmlərlə sövdələrlə əlaqədar bazardan suai istifadə edən qanunlardan və/yaxud qaydalardan və/yaxud federal qiymətli kağızlar qanunlarını pozmamaq üçün siz cavabdehlik daşıyacaqsınız. Hər hansı şübhəniz olarsa, müstəqil hüquqi məsləhət üçün müraciət edin.

## Səhmdar olma

İlk alışınız həyata keçdikdən sonra avtomatik olaraq səhmdar olacaqsınız; planla əhatə olunan səhmlərinizi sizin adınızdan müvəkkilsaxlayacaq – müvəkkil Computershare şirkətidir. Aldığınız bütün səhmlər üçün divident almaq hüququnuz var. Dividentlər Wood şirkətinin əldə etdiyi mənfəətin paylanmasıdır. Divident əlavə səhmlər şəklində ödənəcək. Bir səhmdar kimi siz səhmdarların ümumi yığıncağında, məsələn hər il may ayında keçirilən illik ümumi yığıncaqda (İÜY) Computershare vasitəsilə səsverməyə də dəvət ediləcəksiniz. Bir səhmdar kimi nəzərə almalısınız ki, sizin səhmlərin dəyəri arta və ya azala bilər və siz sərmayənizi tam olaraq geri almaya bilərsiniz. Siz Böyük Britaniyadan kənarda yaşayırsınızsa və/yaxud əmək haqqını funt sterlinqdən fərqli valyuta ilə alırsınızsa, əmanətlərinizin dəyəri də Wood səhmlərinin qiymətinin dəyişməsindən asılı olmayaraq sizin ölkənin valyutası ilə funt sterlinq arasında kursun dəyişməsinin təsirinə məruz qalacaq.

# 4. Uyğun

## Saxlama müddəti

Səhmləri aldığınız ilk 12 qü ay keçdikdən sonra siz Saxlama müddətində iştirak etmək qərarı verə biləcəksiniz. Saxlama müddəti elə vaxt müddətinə deyilir ki, bu zaman siz uyğunlaşdırılmış səhmi əldə etmək üçün pulla aldığınız səhmləri saxlamalı olacaqsınız. Bu prosesdə iştirak etmək üçün sadəcə aldığınız səhmlərin hamısını və ya bir qismini 12 ay ərzində saxlamalısınız. Saxlama müddətini ilk alış tarixinin ildönümündə başlayır.

## Şirkəti tərk edənlər

Wood şirkətindən işdən çıxsanız adətən uyğun səhmlərin ödənməsi gecikdiriləcək. Bununla belə, müəyyən şəraitlərdə alış müddəti ərzində aldığınız səhmlərin əvəzini almaq hüququnuz ola bilər; aşağıdakı cədvəldə uyğun səhmib verilib-verilməyəcəyi təsvir edilir.

## Uyğunlaşdırma - 2 səhm al, 1 pulsuz əldə et

12 ay başa çatdıqdan sonra Wood onlayn səhm hesabınızda neçə alınmış səhm olduğunu yoxlayacaq; ancaq pulla alınmış səhmlər uyuğunlaşdırılacaq. Alınmış səhmləri saxlama müddəti davam etdiyi zaman ərzində saxlamaq şərtilə, hər aldığınız İki səhm müqabilində sizə bir pulsuz səhm veriləcək. Pulsuz verilmiş uyğunlaşdırılmış səhmlərdən yerli vergi və sosial mühafizə ödənişləri alınacaq. Saxlama müddəti ərzində səhmləri sata bilərsiniz, lakin ancaq saxlama müddətinin sonuna oinlayn səhm hesabınızda qalmış səhmlərə uyğunlaşdırılmış səhm alacaqsınız. Hər bir saxlama müddəti bundan əvvəlki ildə baş vermiş alışveriş müddətinə uyğun gəlir.

| Şirkətdən çıxmanızın səbəbi | Sizin səhmlər uyğunlaşdırılacaq | Sizin səhmlər uyğunlaşdırımayacaq |
|---|---|---|
| Qeytiyyat/xitam/çıxarılma | | ● |
| Səbəb iş məhsuldarlığı ilə əlaqədar olarsa, qarşılıqlı razılaşma | | ● |
| Artanlıq | ● | |
| Ölüm/Əlillik/Ciddi xəsarət/xəstəlik | ● | |
| Biznes satışı | ● | |
| Səbəb iş məhsuldarlığı ilə əlaqədar olmasa, qarşılıqlı razılaşma | ● | |

Bu sənəd ancaq məlumat məqsədi ilə verilmişdir və sərmayə qoymaq məsləhəti vermir. O, John Wood Group PLC şirkətinin səhmlərini almaq və ya satmaq üçün açıq abunəni və ya təklifi vermir, nə də Wood İşçilər üçün Səhm Planına ("plan") qoşulmağa dəvət etmir. Planda iştirakla bağlı hər hansı bir qərar qəbul etməzdən əvvəl sizə müvafiq olan əraziyə dair www.woodplc.com/employeeshareplan saytında verilmiş onlayn sənədlərin hamısını oxumalısınız. Görəcəyiniz tədbirlə bağlı şübhəniz olarsa, məqsədəuyğun səlahiyyətə malik müstəqil maliyyə məsləhətçisi ilə görüşüb lazımi maliyyə məsləhəti almanızı tövsiyə edərdik.

**www.woodplc.com/employeeshareplan**